Avqustun 2-də 2024–2025-ci il tədris ili üçün Elm və Təhsil Nazirliyi sisteminə daxil olan peşə təhsili müəssisələrinə ixtisas fənn müəllimləri və istehsalat təlimi ustalarının işə qəbulu müsabiqəsinin imtahan mərhələsi keçirilib.

Onlayn formada, yəni portal.edu.az vasitəsilə qeydiyyatdan keçən 3 708 namizəddən 2 375 nəfəri imtahan mərhələsində iştirak etmək hüququ qazanıb. İmtahanda iştirak edən 1 863 namizəd vakant yerlər uğrunda mübarizə aparıb.

150 dəqiqə davam edən imtahanda iştirakçılar ixtisas modulları, tədris metodikası və təlim strategiyaları üzrə test tapşırıqlarını cavablandırıblar.

Müraciətçilərin vakant yerlərə yerləşdirilməsi elektron ərizələrində qeyd etdikləri seçim ardıcıllığı gözlənilməklə 15 sentyabr tarixinədək aparılacaq.